**“2024-cü ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr haqqında” Yevlax Şəhər İcra Hakimiyyəti Başçısının**

# HESABATI

## SOSİAL-İQTİSADİ GÖSTƏRİCİLƏR

- Yevlax rayonu 05 fevral 1935-ci ildə təşkil olunmuşdur. Rayonun sərhəd daxili sahəsi 1465,4 kv.km-dir. Ərazi vahidlərinin sayı 50. O cümlədən: 1 şəhər, 3 qəsəbə, 46 kənd, inzibati ərazi dairələrinin sayı 21. O cümlədən: 1 sahə inzibati ərazi dairəsi, 1 qəsəbə inzibati ərazi dairəsi, 1 qaçqın və köçkünlərin məskunlaşdığı düşərgədə inzibati ərazi dairəsi, 18 kənd inzibati ərazi dairəsi. Mərkəzi Yevlax şəhəridir.

- 01 yanvar 2025-ci il tarixə əhalinin sayı 129415 nəfərdir. 1 kv.km düşən əhalinin sayı 88 nəfərdir. O cümlədən: şəhər və qəsəbə əhalisinin sayı 72602 nəfər (bunun 65158 nəfəri şəhər, 7444 nəfəri isə qəsəbə əhalisidir), kənd əhalisinin sayı 56813 nəfərdir. Kişilərin sayı 63154 nəfər, qadınların sayı 66261 nəfərdir. 2024-cü il ərzində doğulanların sayı 924 nəfər, ölənlərin sayı 770 nəfərdir. Təbii artım 154 nəfərdir.

- 01 yanvar 2025-ci tarixə rayonunun istifadəsində olan torpaq sahəsi 144210 hektardır. Bunun 62660 hektarı dövlət mülkiyyətinə, 46137 hektarı bələdiyyə mülkiyyətinə, 35413 hektarı isə xüsusi mülkiyyətə aiddir. Ümumi torpaq sahəsinin 99767,0 hektarı kənd təsərrüfatı təyinatlı torpaqlar, 44443 hektarı isə yaşayış, sənaye, xüsusi, meşə fondu, su fondu və ehtiyat fondu torpaqlarıdır.

- Əmək qabiliyyətli yaşadək əhalinin sayı 31189 nəfər, əmək qabiliyyətli yaşda əhalinin sayı 85931 nəfər, əmək qabiliyyətli yaşdan yuxarı əhalinin sayı 12295 nəfərdir.

- Məşğul əhalinin sayı 56496 nəfər, muzdla işləyənlərin sayı 12184 nəfərdir.

- İqtisadi fəal əhalinin sayı 65132 nəfər, işsiz əhalinin sayı 3854 nəfər, iqtisadi qeyri-fəal əhalinin sayı 26714 nəfərdir.

- Rayon üzrə məşğulluq səviyyəsi 94,1 faiz, işsizlik səviyyəsi 5,9 faizdir.

- 2024-cü il ərzində Yevlax rayonu üzrə əmək pensiyaçılarının sayı 12716 nəfər, orta aylıq məbləği 391,07 manat, aylıq müavinət alanların sayı 9838 nəfər, orta aylıq məbləği 161,13 manat, birdəfəlik müavinət alanların sayı 1331 nəfər, orta aylıq məbləği 546,35 manat, Azərbaycan Respublikası Prezidentinin təqaüdünü alanların sayı 5363 nəfər, orta aylıq məbləği 138,39 manat, ünvanlı dövlət sosial yardım alanların sayı 931 nəfər, orta aylıq məbləği 482,84 manat təşkil etmişdir.

## ÜMUMDAXİLİ MƏHSUL İSTEHSALI

- 01 yanvar 2025-ci il vəziyyətinə ümumdaxili məhsulun həcmi 548,3 milyon manat olmuşdur. Bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 58,3 milyon manat və yaxud 11,9 faiz çoxdur.

- Ümumdaxili məhsulun 51,0 faizi və ya 279,5 milyon manatı istehsal, 41,0 faizi və ya 268,8 milyon manatı isə xidmət sahəsini təşkil etmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 20,7 faiz və ya 47,9 milyon manat istehsal, 4,0 faiz və ya 10,3 milyon manat xidmət sahəsi artmışdır.

- Ümumdaxili məhsulun 31,4 milyon manatını sənaye, 167,1 milyon manatını kənd təsərrüfatı, 81,1 milyon manatını tikinti, 170,0 milyon manatını ticarət, 9,1 milyon manatını nəqliyyat, 3,8 milyon manatını rabitə, digər xidmətlər isə 85,8 milyon manatını təşkil etmişdir.




- 01 yanvar 2025-ci il tarixə olan vəziyyətinə (adambaşına) hər nəfərə 4236,7 manat ümumdaxili məhsul istehsal olunmuşdur. Bu da ötən il ilə müqayisədə 10,5 faiz və ya 445,2 manat çox olmuşdur.

## ƏHALİNİN PUL GƏLİRLƏRİ

- Orta aylıq əmək haqqı 615,1 manat olmuşdur ki, bu da əvvəlki ilə nisbətən 2,8 faiz və ya 17,2 manat artmışdır.

## BÜDCƏ, MALİYƏ, BANK, SOSİAL MÜDAFİƏ VƏ MƏŞĞULLUQ SAHƏSİ ÜZRƏ

- 01 yanvar 2025-ci il tarixə olan vəziyyətinə rayonun büdcə gəlirləri 8 milyon 15 min 916 manat, büdcə xərcləri isə 7 milyon 399 min 362 manat olmuşdur.

- Rayonda 4 bank filialı fəaliyyət göstərir.

- 01 yanvar 2025-ci il tarixə olan vəziyyətinə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 162 sahibkara 7040,7 min manat güzəştli kredit verilmişdir.

## TİCARƏT VƏ XİDMƏT SAHƏSİ ÜZRƏ

- 01 yanvar 2025-ci il tarixə olan vəziyyətinə ticarət dövriyyəsi və pullu xidmətlərinin ümumi həcmi 170,0 milyon manat olmuşdur. Bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlə 1,2 faiz və ya 0,2 milyon manat artmışdır.

- 2024-cü ildə Yevlax rayonunun ərazisində (şəhər və kəndlərdə) 46 ədəd ticarət və xidmət obyekti tikilib istifadəyə verilmişdir.

- Yeni tikilən ticarət və xidmət obyektləri müasir üslubda tikilərək şəhərin ümumi görkəminə uyğunlaşdırılmışdır. Hazırda rayonda 1000-dən çox ticarət, iaşə və xidmət obyekti əhaliyə müxtəlif xidmətlər göstərir.

## NƏQLİYYAT SAHƏSİ

- 01 yanvar 2025-ci il tarixə olan vəziyyətinə rayonda fəaliyyət göstərən nəqliyyat müəssisələri üzrə göstərilən xidmətdən əldə olunan gəlirin həcmi (fiziki şəxslər də daxil olmaqla) 9078,1 min manat olmuşdur ki, bu da əvvəlki il ilə müqayisədə 4,4 faiz və ya 378,7 min manat çox təşkil etmişdir.

- 01 yanvar 2025-ci il tarixə olan vəziyyətinə rayon üzrə avtomobil nəqliyyatı ilə (fiziki şəxslər də daxil olmaqla) 1730,0 min ton yük daşınmışdır ki, bu da ötən il ilə müqayisədə 5,5 faiz çoxdur. Bu nəqliyyat növündə yük dövriyyəsi ötən il ilə müqayisədə 6,3 faiz artaraq 134,9 mln ton-km təşkil etmişdir.

- 01 yanvar 2025-ci il tarixə olan vəziyyətinə avtomobil nəqliyyatı ilə (fiziki şəxslər də daxil olmaqla) 23712 min sərnişin daşınmış və bu daşınmalar ötən il ilə müqayisədə 7,0 faiz artmışdır. Sərnişin dövriyyəsi ötən il ilə müqayisədə 4,8 faiz artaraq 76,6 min sərnişin-km təşkil etmişdir.

- 2025-ci ilin yanvarın 1-i vəziyyətinə bütün nəqliyyat növləri üzrə cəmi 14586 ədəd avtomobil mövcud olmuşdur. Şəxsi minik avtomobilləri cəmi avtomobillərin 85,6 faizini və ya 12480 ədəd olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 5,4 faiz çox olmuşdur.

- Rayon üzrə avtomobillərin sayında əvvəlki illə müqayisədə 4,8 faiz artım müşahidə olunmuşdur. Ondan yük avtomobilləri üzrə 1,8 faiz, minik avtomobilləri üzrə 5,4 faiz, xüsusi təyinatlı avtomobillər üzrə 2,8 faiz, digər avtomobillər üzrə isə 7,8 faiz çox olmuşdur.

- Hazırda hər 1000 nəfərə düşən avtomobillərin sayı 113 ədəd, hər 100 ailəyə düşən şəxsi minik avtomobillərinin sayı isə 51 ədəddir. Əvvəlki illə müqayisədə bu göstərici müvafiq olaraq 4,6 faiz və 2,0 faiz çox olmuşdır.

- 01 yanvar 2025-ci il tarixə olan vəziyyətinə nəqliyyat müəssisələrində çalışanların orta sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,7 faiz azalaraq 176 nəfər təşkil etmişdir. Nəqliyyat müəssisələri üzrə orta aylıq nominal əmək haqqı ötən ilin müvafiq dövrünə nisbətən 0,3 faiz artaraq 595,3 manat olmuşdur. Nəqliyyat sahəsində işçilərin azalma səbəbi "Azalaqro" Yevlax Aviasiya Şirkətində işçilərin ixtisarının aparılması ilə bağlıdır.

## AQRAR SAHƏ ÜZRƏ

- Hesabat dövründə ümumilikdə 167,1 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da əvvəlki ilə nisbətən 10,1 milyon manat artıq və ya 6,4 faiz çox olmuşdur.

- 2024-cü ilin məhsulu üçün rayonda 2025-ci ildə 5558,6 hektar buğda, 6501,4 hektar arpa əkilmişdir. Buğda məhsulu 20791,0 ton olmaqla 37,4 sentner, arpa məhsulu 19698 ton olmaqla məhsuldarlıq 30,3 sentner olmuşdur. Bundan əlavə 16630 hektar yonca bitkisi və digər kənd təsərrüfatı bitkiləri əkilib becərilmişdir. 2025-ci ilin məhsulu üçün 2024-cü ilin payız əkinində 10352,11 hektar taxıl əkilmişdir. Bunun da 4425,75 hektarı buğda, 5926,36 hektarı arpa bitkisidir.

- Rayonda 2024-cü ildə 2455,1 hektarda pambıq əkilmiş, 9082,1 ton pambıq məhsulu tədarük edilmiş, məhsuldarlıq 37,0 sentner olmuşdur. Keçən il ilə müqayisədə məhsuldarlıq 1,2 sentner artmış və 2326,3 ton artıq məhsul istehsal olunmuşdur.

- 2024-cü ildə 5634,35 kq barama tədarük olunmuşdur. Bu da 2023-cü ilə nisbətən 41,6 faiz və ya 4015,65 kq azalma deməkdir. Barama istehsalının azalmasının əsas səbəbi ipəkqurdu toxumunun inkubasiyası zamanı yerli iqlim şəratinin nəzərə alınmaması və hava şəraitinin uzun müddət qeyri sabit keçməsi səbəbindən yemləmə dövrünün uzanması ilə bağlı olmuşdur.

- 01 yanvar 2025-ci il tarixə olan vəziyyətinə iribuynuzlu mal-qaranın baş sayı 79331 olmuşdur. Bundan 33235 başı ana maldır. 2024-cü ildə 2023-cü ilin müvafiq dövrünə nisbətən iri buynuzlu mal-qaranın sayı 575 baş artmışdır.

- 2024-cü ildə 2023-cü ilin müvafiq dövrünə nisbətən xırda buynuzlu mal-qaranın sayı 898 baş artaraq 185211 baş olmuşdur.

- 2024-cü ildə 2023-cü ilin müvafiq dövrünə nisbətən quşların sayı 574 baş artaraq 457444 baş olmuşdur.

- 2024-cü ildə fərdi arıçılıq təsərrüfatı inkişaf edərək 311 təsərrüfatda 7673 arı ailəsi olmuşdur.

- 01 yanvar 2025-ci il tarixə olan vəziyyətinə 9422,1 ton ət, 38335,4 ton süd, 19317 min ədəd yumurta və 361,4 ton yun ishehsal olunmuşdur. Keçən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 113,6 ton, süd istehsalı 142,5 ton, yumurta istehsalı 1084 min ədəd, yun istehsalı 3,8 ton çox olmuşdur.

- Yevlax rayonunda 19 ədəd hidrotexniki qurğularda və 31 ədəd nasos stansiyalarında cari təmir işləri aparılmış, 62280 $m^2$ kanal sahəsi və kol-kos əl ilə təmizlənmiş, 72 ədəd subartezian quyuları, 24 ədəd mexaniki elektrik avadanlıqlarında cari təmir işləri aparılmışdır. Bununla yanaşı 891 min kbm drenaj şəbəkələri mexanizmlərlə lildən təmizlənmişdir.

- Rayonun Aran qəsəbəsində 2807,0 hektar ərazidə Aqropark yaradılmışdır. Aqroparkda meyvə bağlarının salınması, heyvandarlıq və quşçuluq təsərrüfatlarının yaradılması məqsədilə 100 milyon manatdan çox özəl investisiyanın qoyulması, 500 daimi olmaqla və 1000-dən çox işçinin mövsümlük işə cəlb olunması nəzərdə tutulmuşdur.

- Aqroparkın 2807 hektarlıq ərazisinin 2280 hektarı 34 rezidentə subicarəyə verilmişdir. Mövcud rezidentlər tərəfindən 55 milyon manatdan çox investisiya qoyulmuş, indiyədək 21 rezident 1197 hektar ərazidə əkin işləri aparmışdır. Yeni meyvə bağlarının salınması istiqamətində işlər davam etdirilir.

- Aqroparkda İsrail-Azərbaycan tərəfdaşlığı çərçivəsində 11,8 hektar ərazidə illik istehsal gücü minimum 20 milyon ədəd damazlıq yumurta olan quşçuluq təsərrüfatı yaradılır.

- Bundan əlavə Aqroparkda Özbəkistan-Azərbaycan tərəfdaşlığı çərçivəsində baramaçılığın yem təminatının yaxşılaşdırılması məqsədilə tut tingçiliyinin yaradılması planlaşdırılmış, bununla bağlı "Azting" MMC-yə 20 ha torpaq sahəsi ayrılmışdır.

- Yevlax rayonunun Aran qəsəbəsi ərazisindən "Azərşəkər" MMC-yə icarəyə verilmiş 2000,0 hektar torpaq sahəsində əkin işləri uğurla davam etdirilir.

## ƏRAZİ İDARƏETMƏ VƏ BƏLƏDİYYƏLƏRLƏ İŞ SAHƏSİ ÜZRƏ

- Rayonda 1 şəhər, 3 qəsəbə, 46 kənd yaşayış məntəqəsi vardır. 21 inzibati ərazi dairəsi, 10 bələdiyyə fəaliyyət göstərir.

- 01 yanvar 2024-cü il tarixə rayonun əhalisi 129 min 415 nəfər təşkil etmişdir. İl ərzində əhalinin sayı 169 nəfər artmışdır. Əhalinin keçən ilə nisbətən artımı əsasən doğuşların və rayona gələnlərin sayının artması hesabına olmuşdur.

- Qeyd etmək lazımdır ki, Varvara, Salahlı, Havarlı və Nemətabad kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin, Qoyunbinəsi, Xaldan, Salahlı və Aşağı Bucaq bələdiyyələrinin fəaliyyəti tələb olunan səviyyədə deyildir. Bələdiyyə torpaqlarından səmərəli istifadə olunmasına lazımi nəzarət təmin edilməmişdir. Xüsusilə əkin yerlərindən başqa məqsədlər üçün istifadə olunması halları mövcuddur. Bələdiyyələr tərəfindən vergi və rüsumların yığılması üçün lazımi iş aparılmır, bu da onların büdcəsinə mənfi təsir edir. Vətəndaşların problemlərinin öyrənilməsi və onların müraciətlərinə baxılması işi həmişə lazımi səviyyədə olmur. Ona görə də bəzən həlli asan məsələlərlə bağlı vətəndaşlar Şəhər İcra Hakimiyyətinə və ya yuxarı orqanlara müraciətlər edirlər. Odur ki, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklər və bələdiyyələr əhalini narahat edən problemləri ilə ciddi məşğul olmalı və öz işlərində dönüş yaratmalıdırlar. Vətəndaş-məmur münasibətlərində hər bir vəzifəli şəxs diqqətli olmalıdır.

- Şəhər İcra Hakimiyyəti Başçısı aparatı ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələrlə, bələdiyyələrlə lazımi iş aparmalı, onların fəaliyyətinin daha da yaxşılaşdırılması üçün tələbkarlığı artırmalıdırlar.

- Rayonda 2 Seçki Dairəsi vardır. 52 saylı Yevlax seçki dairəsində 53 seçki məntəqəsi, 53 saylı Yevlax-Mingəçevir seçki dairəsində isə Yevlax rayonu üzrə 38 seçki məntəqəsi mövcuddur.

## TİKİNTİ-QURAŞDIRMA, ABADLIQ SAHƏSİ ÜZRƏ

- Şəhər ərazisində qəzalı vəziyyətdə olan 15 çoxmənzilli yaşayış və bir 5 mərtəbəli yataqxana binaları mövcuddur. Həmin 191 mənzildən ibarət qəzalı yaşayış binalarında 191 ailə olmaqla 725 nəfər şəhər sakini, qəzalı yataqxana binasında isə 114 ailə olmaqla 428 nəfər yaşayır. Qəzalı vəziyyətdə olan 15 yaşayış binalarından 7-nin tikintisi plana salınmış və bu məqsədlə şəhərin Pişəvəri küçəsi 4 və 8 saylı yaşayış binaları yerləşən ərazidə müvafiq torpaq sahəsi seçilmişdir. Tikinti işlərinə 2025-ci ildə başlanılması nəzərdə tutulmuşdur.

- Ümumi sahəsi 18035 kv metr olan 9 küçədə (C.Mustafayevdən-Nəsimi küçəsinə, Aşıq Ələsgər,H.Rəcəbov,Q.Zakir, Xəqani, H.Zərdabi, Sahib Əliyev küçələri, H.Əliyev və Nizami prospektləri) əsaslı yol tikintisi və Nizami prospektində 8000 p/metr bardur, 3250 kv.metr tamet daşlarının düzülməsi nəzərdə tutulmuş, hazırda 7 küçədə işlər yekunlaşaraq təhvil verilmiş, 2 küçədə isə işlər başlamaq üzrədir.

- Mənzil fondunun yaxşılaşdırılması istiqamətində şəhərin Qarxunlu Əşrəf bəy küçəsində yerləşən 9, 10 və 11 saylı və şəhərin Qamboy Quliyev küçəsində yerləşən 2 saylı çoxmənzilli yaşayış binalarının təmiri ilə bağlı layihə smeta sənədləri hazırlanmış və ekspertizadan keçirilmişdir. Qanunvericiliyə uyğun olaraq görüləcək işləri tender vasitəsilə qalib təşkilat müəyyən edilmişdir. İşlər başlanılmış və hazırda davam etdirilir.

- "Sağlam Məhəllə" layihəsi üzrə Yevlax şəhərinin Qarxunlu Əşrəf bəy küçəsində yerləşən 9,10 və 11 saylı binaların həyətində tikintisi nəzərdə tutulan açıq meydançaların və avadanlıqlarla təcizatı işlərinin layihə-smeta sənədləri hazırlanmış, təqdim edilmiş layihə üzrə işlər aparılır.

- Hal-hazırda şəhərin Rəşad Budaqov küçəsi 1 ünvanında "MİDA" MMC tərəfindən 1,9 ha torpaq sahəsində 329 mənzilli, 7 mərtəbəli olmaqla 6 yaşayış binasının tikinti işləri surətlə davam etdirilir. Tikinti işlərinin 2025-ci ilin sonunadək yekunlaşması nəzərdə tutulmuşdur.

- Gənclər və İdman Nazirliyinin sifarişi əsasında Kür çayının Yevlax rayonundan keçən hissəsinin sağ sahilində, ərazisi 4,0 hektar olan Yevlax Olimpiya kompleksinin inşası surətlə davam etdirilir.

- 290 oturacaq yerlik “Heydər Əliyev“ adına Sarayın yenidən qurulması işləri davam etdirilir.İşlərin növbəti ilin birinci rübündə yekunlaşdırılması nəzərdə tutulmuşdur.

- Dövlət proqramına uyğun olaraq Elm və Təhsil Nazirliyi tərəfindən şəhərin Nizami pr.57 ünvanında Səməd Vurğun adına 528 yerlik 5 nömrəli tam orta məktəbin binasının tikintisinə başlanılmışdır. Hazırda işlər davam etdirilir.

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Yevlax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrası ilə bağlı tədbirlər haqqında” 2019-cu il 13 noyabr tarixli Sərəncamına əsasən layihə çərçivəsində Kür çayının sahilindən şəhərə 2640 metr uzunluğunda diametri 630 mm olan yüksək təzyiqli polietilen borularla magistral su xətti çəkilmişdir.

- Yevlax şəhərində həyata keçirilən prospekt və küçələrdə müasir tələblərə cavab verən yeni işıqlandırma sisteminin quraşdırılması layihəsi çərçivəsində 27 km uzunluğunda 27 küçənin işıqlandırılması tam başa çatdırılmış və 2025-ci ildə 21 km uzunluğunda 43 küçədə müasir işıqlandırma sisteminin quraşdırılması işləri nəzərdə tutulmuşdur.

- Kür çayı sahilində Sahil Bulvar istirahət parkında həyata keçirilən əsaslı yenidənqurma işləri çərçivəsində ərazidəki korroziyaya uğramış dəmir konstruksiyalar, örtük panellər sökülmüş, çökmüş hissələrdə sahilbərkitmə işləri aparılmış, istinad divarları çəkilmiş və tamet örtüyü vurulmuşdur.

- ❖ Şəhərin Heydər Əliyev prospekti boyu səkilərdə aparılan təmir tikinti işləri çərçivəsində yaşıllıq ərazilərə ağac və gül kolları əkilmiş, boş ərazilərə yeni qazon toxumları səpilərək bərpa edilmişdir.

- ❖ Bakı-Ələt-Qazax-Gürcüstan dövlət sərhəddi avtomobil yolunun Yevlax rayonu hissəsində 149, Yevlax-Bərdə avtomobil yolunun Yevlax rayonu hissəsində 90, ümumilikdə 239 yaşayış və qeyri-yaşayış obyektində Azərbaycan Respublikasının Şəhərsalma və Arxitektura Komitəsinin təklifi əsasında yeniqənqurma və təmir işləri aparılmışdır.

- ❖ birpencere.arxkom.gov.az elektron sisteminə tikinti barədə 5, icazə icraatı ilə bağlı 16 müraciət daxil olmuşdur.

## İNFRASTRUKTURUN YAXŞILAŞDIRILMASI

### Elektrik enerjisi təchizatı

- ❖ “Azərişıq” ASC-nin “Mərkəzi-Aran” Regional Enerji Təchizatı və Satışı İdarəsinin Yevlax Elektrik Şəbəkəsi tərəfindən 2024-cü il ərzində istismar sahəsində aşağıdakı işlər yerinə yetirilmişdir.

- ❖ Yevlax Elektrik Şəbəkəsinin xidmət ərazisində 210 ədəd transformator məntəqəsi və komplekt transformator məntəqələri cari, 65 ədəd güc transformatoru əsaslı təmir olunmuşdur. 6,8 km 10kV-luq elektrik verilişi xəttində 172 ədəd dayaq quraşdırmaqla əsaslı təmir olunmuşdur. 14,5 km 10kV-luq elektrik verilişi xəttində cari təmir işləri aparılmışdır. 35/10/6 kV-luq hava xətlərində 14,3 km yaşıl kütlə təmizlənməklə cari təmir işləri aparılmışdır.

- ❖ 2024-cü il ərzində Yevlax Elektrik Şəbəkəsində 82 yeni sayğac quraşdırılmış, 958 ədəd sayğac dəyişdirilmişdir.

- ❖ Əhali və qeyri-əhali abonentlərinə məxsus 2395 ədəd köhnə tipli sayğaclar “Smart-kart” və SMS tipli sayğaclarla əvəz olunmuşdur

- ❖ Əhalinin elektrik enerjisi ilə təmin etmək üçün işlər davam etdirilir.

### Qaz təchizatı

- ❖ Yevlax rayonunun 50 yaşayış məntəqəsi təbii qazla təmin olunmuş və beləliklə rayonun qazlaşdırılması tam başa çatdırılmışdır.

- ❖ Yevlax rayonunun ərazisi 5 Qaz paylayıcı stansiyadan təbii qazla qidalanır. Rayon əhalisi üzrə istehlakçıların sayı 24876 abonent, qeyri-əhali üzrə 268 abonent təşkil edir.

- ❖ 2024-cü il ərzində "Təmiz Qaz" xidməti tərəfindən Yevlax rayonu üzrə 6460 qaz sızmaları aşkar edilmiş, bunlardan 6411 qaz sızmalarının qarşısı alınmışdır.

- ❖ Şəhər ərazisində Heydər Əliyev prospektində istismar müddətini başa vurmuş orta təzyiqli d=219 mm polad qaz kəmərlərinin polietilen PE-225mm borularla əvəzlənmə işləri aparılmışdır. Hazırda Kamil Sabitov küçəsində sənaye təyinatlı d=219 mm qaz xətti PE-315mm polietilen borularla əvəzlənir.

- ❖ 2024-cü il ərzində 3356 abonentin qaz sayğacları yeni sayğaclarla əvəzlənmişdir. Bundan əlavə 5158 ədəd sayğaclarda yaranmış qaz sızmalarının qarşısı alınmışdır. Fərdi qaydada 129 abonentə layihə əsasında yeni qaz xətləri çəkilərək qazın verilişi təmin olunmuşdur.

- ❖ Əhalinin qaz təchizatının yaxşılaşdırılması sahəsində işlər davam etdirilir.

**Su təchizatı**

- 2024-cü ildə əhalinin içməli su ilə təmin olunması diqqət mərkəzində olmuş, artezian və subartezianların, kanalizasiya nasos stansiyalarının istismarı nəzarətdə saxlanılmış, əhalinin içməli su ilə təminatında və çirkab, yağış sularının şəhərdən kənarlaşdırılmasında yaranan problemlər aradan qaldırılmışdır.

- Ümumilikdə rayonun su təchizatı və kanalizasiya sisteminin yaxşılaşdırılması məqsədilə 352 km su, 27 km kanalizasiya xətti çəkilmiş, 56 subartezian quyusu qazılmış, 2 ədəd su anbarı, 32 ədəd içməli su təmizləyici qurğu quraşdırılmış və 455 ədəd bulaq tikilmişdir. Kür çayı sahilində içməli su təmizləyici qurğular quraşdırılmış şəhərə su vuran nasos stansiyası tikilmişdir.

- Kür çayının kənarında inşa edilmiş sutəmizləyici qurğudan 2024-cü ildə ümumi uzunluğu 16 km olan 29 küçə və Çənlibel aşayış massivində 3190 abonent su sayğacı quraşdılılaraq içməli su ilə təmin edilmişdir. İşlər davam etdirilir.

- Şəhərin H.Əliyev prospekti 6,8,10 saylı, Q.Quliyev 14 saylı, Dəmiryol bina 24 saylı və Nizami prospekti 39 saylı binaların zirzəmilərində kanalizasiya xətləri əsaslı təmir edilmişdir.

- Əhalinin içməli su təminatının yaxşılaşdılrılması istiqamətində işlər davam etdirilir.

**Rabitə xidmətləri**

- Əvvəlki illərə nisbətən əhaliyə göstərilən rabitə xidmətlərinin səviyyəsi və həcmi artmışdır.

- 2024-cü il ərzində əhaliyə göstərilən telefon və internet xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülmüşdür. Belə ki, Salahlı, Tanrıqulular, Ərəbbəsrə, Gülövşə, Hürüuşağı kəndlərində GPON layihəsinin icrası ilə bağlı yüksək sürətli internet əhalinin istifadəsinə verilmiş, hazırda Varvara kəndində bu işlər davam etdirilir.

- Ümumilikdə 19733 abunəçi GPON xidmətləri ilə təmin olunmuşdur.

- Əhali ilə yanaşı iaşə obyektlərinin də yüksək sürətli internet sistemindən yararlanması nəzərdə tutulmuşdur.

- Əhalinin rabitə xidmətləri ilə təmin edilməsi işləri davam etdirilir.

## TƏHSİL SAHƏSİ ÜZRƏ

- Yevlax rayonunda 55 ümumtəhsil müəssisəsi fəaliyyət göstərir. Həmin müəssisələrdən 42-i tam orta, 8-i ümumi orta, 5-i ibtidai məktəbdir.

- 2024-2025-ci tədris ilində ümumi təhsil müəssisələrində şagirdlərin sayı 15170 nəfər təşkil edir ki, onlardan ibtidai təhsil səviyyəsi üzrə olanların sayı 5448 nəfər, ümumi orta təhsil səviyyəsi üzrə olanların sayı 7616 nəfər, tam orta təhsil səviyyəsi üzrə isə olanların sayı 2106 nəfərdir.

- Dövlət məktəbəqədər təhsil müəssisələrinin sayı 26, uşaqların sayı 1055 nəfərdir.

- İlk peşə-ixtisas təhsil müəssisələrinin sayı 1, təhsil alanların sayı isə 172 nəfərdir.

- 2023-2024-cü tədris ilində XI sinifləri 1090 şagird bitirmiş, 529(49%) nəfəri Respublikanın müxtəlif ali məktəblərinə sənəd vermiş, 352(32%) nəfər aili məktəblərə qəbul olmuşdur. Onlardan 14 nəfəri 600-dən yuxarı, 44 nəfəri isə 500-dən yuxarı bal toplamışdır. Rayon üzrə ən yüksək nəticəni S.Vurğun adına şəhər 5 nömrəli tam orta məktəbin məzunu Süleymanova Nərmin Zaur qızı (675,6 bal) göstərmişdir.

- 2024-cü ildə S.Vurğun adına şəhər 5 nömrəli tam orta məktəbin yeni binasının tikintisinə başlanılmışdır. Bununla yanaşı Yeni Çobankərə kənd ibtidai, F.Nəcəfov adına Yaldili kənd, Nərimanabad kənd, Qaraoğlan kənd və N.Nərimanov adına şəhər 9 nömrəli tam orta məktəblərində cari təmir işləri aparılmışdır.

## SƏHİYYƏ SAHƏSİ ÜZRƏ

- 2024-cü il ərzində rayon ərazisində 124 həkim, 264 orta tibb işçisi çalışdığı 2 xəstəxana, 9 ambulator-polliklinika və ailə sağlamlıq mərkəzləri fəaliyyət göstərmişdir. Əhalinin 10 min nəfərinə orta hesabla 10,1 həkim, 48,67 orta tibb işçisi düşür.

- 2024-cü il ərzində Təcili Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına müraciət edənlərin sayı 5953 nəfər olmuşdur.

- “Yevlax rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsində 2024-cü il ərzində 4126 xəstə qəbul olunmuş, 874 cərrahiyyə əməliyyatı aparılmış, Tibbi Göndərişlərə Nəzarət Komissiyası”nın rəyi əsasında özəl xəstəxanalara 4827 göndəriş, Dövlət xəstəxanalarına 2987 göndəriş verilmişdir.

- “Yevlax rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsində 2024-cü il ərzində 504 uşaq doğulmuş, ana ölümü halı baş verməmişdir.

- 2024-cü il ərzində xəstəxanada ölənlərin sayı 54 nəfər olmuşdur.

## MƏDƏNİYYƏT SAHƏSİ ÜZRƏ

- 2024-cü il ərzində Yevlax rayonunda 33 klub, 35 kütləvi kitabxana, 2 muzey və 6 Uşaq musiqi məktəbi fəaliyyət göstərmişdir.

- Kütləvi kitabxanalarda kitab fondu 166200 min nüsxə olmuş, orta hesabla 17200 sakinə 118785 nüsxə kitab düşür.

## GƏNCLƏR VƏ İDMAN SAHƏSİ ÜZRƏ

- Rayon gəncləri arasında ideya-siyasi və fiziki tərbiyənin təşkili sahəsində Yevlax şəhəri üzrə Gənclər və İdman Sektoru, Gənclərin İnkişaf və Kariyera Mərkəzi, “Yevlax Gənclər Evi” Sosial Xidmət Müəssisəsi tərəfindən 2024-cü il ərzində müxtəlif tədbirlər keçirilmişdir.

- Heydər Əliyev Fondunun vitse-prezidenti, “İDEA” İctimai Birliyinin sədri Leyla xanım Əliyevanın dəstəyi ilə Yevlaxlı gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün şəhərin Heydər Əliyev prospekti 11 ünvanında müasir standartlara cavab verən “Gənclər Məkanı” istifadəyə verilmişdir.

- 2024-cü ildə keçirilən idman yarışlarında Yevlaxlı idmançılar bir sıra uğurlar qazanmışlar.Belə ki, Yunanıstanın Lutraki şəhərində yeniyetmələr arasında keçirilən Avropa çempionatında idmanın Yunan-Roma güləş növü üzrə Kərimov Xudayar Məzahir oğlu II yer, həmçinin ölkə birinciliyində də II yeri qazanmışdır.

- Azərbaycan çempionatında idmanın ağırlıqqaldırma növü üzrə 2 nəfər II yer, 1 nəfər III yer, Ölkə birinciliyində idmanın Yunan-Roma güləş növü üzrə 2 nəfər III yer, ağırlıqqaldırma növü üzrə 2 nəfər III yer, cüdo növü üzrə 1 nəfər I yer, 1 nəfər III yer tutmuşlar.

## İCTİMAİ TƏŞKİLATLAR VƏ SİYASİ PARTİYALARLA İŞ SAHƏSİ ÜZRƏ

- Azərbaycan Respublikası Prezidentinin xalqımızın xoşbəxt rifahı naminə həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin yerlərdə təbliği, ölkə Prezidentinin nitqlərinin öyrənilməsi, fərman və sərəncamlarından irəli gələn vəzifələri, ölkənin ictimai-siyasi həyatında baş verən prosesləri ictimaiyyətin bütün təbəqələrinə daha dərindən və ardıcıl şəkildə çatdırılması məqsədilə Şəhər İcra Hakimiyyətinin rəsmi internet saytında və sosial şəbəkə hesablarında müntəzəm olaraq məlumatlar paylaşılır.

- 2024-cü il ərzində rayon ərazisində ictimai-siyasi vəziyyət sabit olmuşdur.Rayonda 12 İctimai Birliyin nümayəndəliyi və 11 siyasi partiya vardır. Siyasi partiyalardan Yeni Azərbaycan Partiyasının Yevlax Rayon Təşkilatı özünün inzibati binasında fəaliyyət göstərir, üzvlərinin sayı 8853 nəfərdir.

- Rayon ərazisində dini duruma nəzarət “Dini etiqat azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu”na müvafiq olaraq tənzimlənir.Hazırda Yevlax şəhərində, qəsəbə və kəndlərdə 22 məscid var ki, həmin məscidlərdən 16-sı fəaliyyət göstərir.

- Ötən müddət ərzində rayon ərazisində dini və milli zəmində heç bir münaqişə baş verməmişdir.Rayon ərazisində heç bir qeyri-islam dini icması, dini ayrı-seçkiliyi təbliğ və təşviq edən qruplar yoxdur. Qeyri-hökumət təşkilatlarının və siyasi partiyaların dini məsələlərə müdaxilə halları müəyyən edilməmiş, xarici missioner təşkilatlarının və nümayəndələrinin fəaliyyətinə yol verilməmişdir.

## YAŞAYIŞ SAHƏSİ İLƏ TƏMİN OLUNMA

- Rayon ərazisində müharibə əlilləri və şəhid ailələri üçün 2024-cü il ildə 14 fərdi yaşayış evinin tikintisinə başlanılmış, hazırda tikinti işləri davam etdirilir.

- 2024-cü il ərzində 165 nəfər ailə üzvü olan 37 ailə mənzil şəraitini yaxşılaşdırmaq üçün növbəyə alınmışdır.

## HÜQUQ MÜHAFİZƏ, QEYDİYYAT VƏ HƏQİQİ HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞ SAHƏSİNDƏ

- 2024-cü ildə hüquq mühafizə orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, onun profilaktikası və qanunçuluğun möhkəmləndirilməsi istiqamətində bir sıra işlər görülmüş, bu məqsədlə kompleks əməli tədbirlər həyata keçirilmişdir.

- 2024-cü il ərzində Yevlax rayonu ərazisində 316 cinayət hadisəsi qeydə alınmış, həyata keçirilmiş əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində 332 cinayət hadisəsinin açılması təmin olunmuş, 12 cinayət hadisəsi isə bağlı qalmışdır. 2024-cü il ərzində ümumi cinayətlərin açılması 96,5 % təmin edilmişdir.

- Baş vermiş cinayətlərin 42-ni ağır cinayətlər təşkil etmişdir. Cinayətlərin açılması 100% təmin edilmişdir.

- Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində 81 fakt aşkar edilmiş onlardan 26 satış faktı olmuşdur ki, qeyri-reqal dövriyyədən 25 kq 864,208 qram narkotik vasitə çıxarılmışdır.

- 2024-cü il ərzində 924 doğum faktı, 770 ölüm faktı qeydə alınmışdır. 143 nikah bağlanmış, 275 nikahın pozulması qeydə alınmış, əvvəlki ilə nisbətən boşanmaların sayı 12 fakt artmışdır. Yevlax rayon qeydiyyat şöbəsi, Şəhər İcra Hakimiyyəti Başçısının sahə, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri, eləcə də ağsaqqallar, ziyalılar tərəfindən boşanma hallarının azalması üçün yerlərdə əhali arasında, xüsusən gənc ailələrlə mütəmadi olaraq maarifləndirmə tədbirlərinə diqqət artırılmalıdır.

- 2024-ci il ərzində Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin Yevlax rayon şöbəsi tərəfindən 647 nəfər gənc həqiqi hərbi xidmətə göndərilmişdir.

## SƏNƏDLƏRLƏ VƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ ŞÖBƏSİ ÜZRƏ

- 2024-cü il ərzində Şəhər İcra Hakimiyyətində, idarə, müəssisə və təşkilatlarda vətəndaşların qəbulu, onların təklifi, ərizə və şikayətlərinə baxılmasına diqqət daha da artırılmışdır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının tövsiyələrinə uyğun olaraq əhalinin yerlərdə qəbuluna xüsusi diqqət yetirilir.

- 2024-cü il ərzində rayonun yaşayış massivlərində keçirilmiş 46 səyyar qəbulda 2367 nəfər, ŞİH-nin inzibati binasında keçirilən 46 qəbulda 516 vətəndaş qəbul edilərək dinlənilmişdir. Müraciət edən vətəndaşlardan 283 nəfəri Şəhər İcra Hakimiyyəti Başçısı tərəfindən qəbul edilərək dinlənilmişdir.

- Vətəndaş müraciətlərinin qeydiyyatının operativliyini təmin etmək üçün Şəhər İcra Hakimiyyətində “qaynar xətt” yaradılmışdır.

- 2024-cü il ərzində dövlət orqanlarından və digər qurumlardan Şəhər İcra Hakimiyyətinə 1317, o cümlədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından 171, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyindən 141, Milli Məclisdən 13, Nazirlər Kabinetindən 27, digər qurumlardan isə 60 müraciət daxil olmuşdur. Daxil olmuş müraciətlərin 590–ı, yəni 45 faizi müsbət həll olunmuşdur.

- Vətəndaşlardan birbaşa Şəhər İcra Hakimiyyətinə 905, o cümlədən, Şəhər İcra Hakimiyyətinin elektron poçt ünvanına 80 müraciət daxil olmuşdur.

- Bununla yanaşı vətəndaşların qanunauyğun olmayan, Şəhər İcra Hakimiyyətinin səlahiyyətləri xaricində olan məsələlərlə bağlı tələblərinə verilən cavablar onları qane etmədiyinə görə bəzi hallarda təkrar müraciətlər edilmişdir.

- Şəhər İcra Hakimiyyəti başçısı Aparatının bütün şöbələri, xüsusi ilə Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi ərizə və şikayətlərə, müraciətlərə vaxtında baxılmasını və qaldırılan məsələlərin ətraflı təhlil olunmasını təmin etmək üçün işini günün tələbləri səviyyəsində qurmağa çalışmalıdır.